# Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının idarə heyətinin videokonfrans formatında iclası olub







**Sentyabrın 22-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin videokonfrans formatında geniş iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev iclasda çıxış edərək gündəlikdə duran məsələlər barədə məlumat verib. O bildirib ki, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyindən istifadə edən işğalçı Ermənistan son günlər təmas xəttində və dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatlar törədərək vəziyyəti gərginləşdirməyə çalışır, nəinki ordumuzun mövqelərini, yaşayış məntəqələrini atəşə tutur, dinc əhalini hədəfə alır. Düşmənin bu təxribatları xalqımızın sonsuz hiddəti ilə qarşılanıb.

Azərbaycanın haqlı mövqeyinə dəstək ifadə edən ölkələrin sayının artdığını diqqətə çatdıran Ş.Hacıyev bildirib ki, xalqımızın Prezident, Ali Baş Komandana və ordumuza inamı tamdır. Bu gün xalqımız bir nəfər kimi dövlətimizin başçısının ətrafında sıx birləşərək, ordu sıralarına qoşulub torpaqlarımızı işğaldan azad etməyə hazırdır.

Ölkəmizdə pandemiyanın qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görüldüyünü vurğulayan YAP Səbail rayon təşkilatının sədri deyib ki, məhz preventiv tədbirlər sayəsində ölkəmiz bu beladan ən az itkilərlə çıxmağı bacarıb. Bunun nəticəsidir ki, Azərbaycanda heç bir sosial proqram pandemiyanın təsiri nəticəsində nəinki ixtisar edilməyib, bu dövrdə həssas qruplara diqqət və qayğı daha da artırılıb. Xalqımız bu diqqət və qayğını yüksək qiymətləndirərək həyata keçirilən dövlət siyasətinə fəal dəstəyini ifadə edir.

Gündəlikdə duran digər məsələdən danışan Ş.Hacıyev gənclər arasında hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında onların potensialından istifadə edilməsinin vacibliyinə toxunub. O, xüsusilə Ermənistanın məkrli siyasətinin ifşası və Azərbaycan əleyhinə həyata keçirilən böhtan və qarayaxma kampaniyalarına qarşı lazımi cavabların verilməsi üçün sosial şəbəkələrdə yüksək fəallığın göstərilməsinin zəruriliyini diqqətə çatdırıb.

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində təşkilatın 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda işğalçı Ermənistanın təcavüzkar siyasətini ifşa etdiyini vurğulayıb. O, düşmənlə informasiya müharibəsinin uğurla aparılmasında vacib istiqamətlərdən söz açaraq, bu baxımdan sosial şəbəkələrdə fəallığın artırılmasının zəruriliyini bildirib.

Digər çıxışlarda da Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində xalqımızın bir nəfər kimi döyüşməyə hazır olduğu ifadə edilib.

Sonda gündəlikdəki digər məsələlər müzakirə olunub, qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.

## ÜST: COVID-19-la MÜBARİZƏ ÜÇÜN 200 VAKSİN KLİNİKİ VƏ KLİNİKƏQƏDƏRKİ SINAQLAR MƏRHƏLƏSİNDƏDİR



Hazırda COVID-19-a qarşı 200 vaksin kliniki və klinikəqədər sınaqlar mərhələsindədir. Hələ ki, onlardan ən azı birinin işə yarayacağına heç bir zəmanət yoxdur. Lakin 2021-ci ilin sonunadək 2 milyard doza effektli və təhlükəsiz vaksinə sahib olmaqdan ötrü əlimizdən gələni etməliyik.

AZƏRTAC BMT-nin saytına istinadla xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) başçısı Tedros Adhanom Qebreyesus bu barədə Cenevrədə brifinqdə deyib.

Qebreyesus vaksinin işlənib hazırlanması üçün ÜST-nin himayədarlığı ilə yaradılan COVAX Alyansına böyük ümidlər bəslədiyini bildirib.

Doktor Tedros qeyd edib ki, Alyans çərçivəsində aparılan fəaliyyət effektli vaksinin axtarışının yarışma ruhunda deyil, əməkdaşlıq ruhunda icra olunacağına zəmanət verir.

İndiyədək yüksək gəlirə malik 64 ölkə COVAX Alyansına rəsmi olaraq qoşulub. Sənaye cəhətdən inkişaf etmiş daha 38 ölkə müvafiq sənədi ən yaxın günlərdə imzalayacaq. Alyansın tərkibində, həmçinin aşağı gəlirə malik 92 ölkə var və onlar maliyyə dəstəyinə ehtiyac duyurlar. Ümumilikdə, bu təşkilat çərçivəsində 156 ölkə vaksinin işlənib hazırlanmasına yardım göstərəcəklərini vəd ediblər, yaxud da ümumi ehtiyatdan vaksinin alınması hüququnu qabaqcadan əldə ediblər. Alyansın iştirakçı-ölkələrinin payına dünya əhalisinin 64 faizi düşür.

Bu təşkilat çərçivəsində dövlətlər maliyyə və elmi resurslarını birləşdirə, hər hansı ayrıca namizəd-vaksinin işlənib hazırlanması zamanı uğursuzluqdan sığortalana və uğurlu tədqiqatların rentabelliyini təmin edə bilərlər.

"COVAX Alyansının məqsədi hamını ədalətli şəkildə koronavirus əleyhinə vaksinlə təmin etməkdir", - deyən ÜST rəhbəri bütün ölkələri bu Alyansın uğurlarına imkan yaratmağa səsləyib.

ÜST-nin baş direktoru qeyd edib ki, təşəbbüsün həyata keçirilməsi üçün əlavə investisiyalar tələb olunur. Hələ ki, ölkələr koronavirusa qarşı mübarizə vasitəsinin axtarışına, o cümlədən COVAX vasitəsilə 3 milyard dollar ayırıblar. Lakin qarşıya qoyulan məqsədlərə nail olmaqdan ötrü 35 milyard dollar tələb olunur. Onun sözlərinə görə, 15 milyard dollar "dərhal lazımdır".

ÜST rəhbəri bildirib ki, hazırda COVID-19-a qarşı 200 vaksin kliniki və klinikəqədər mərhələdədir. Bununla yanaşı, o vurğulayıb ki, hələ onlardan ən azı birinin işə yarayacağına heç bir zəmanət yoxdur.

Xatırladaq ki, Azərbaycan GAVI Alyansı (Global Alliance for Vaccines) ilə COVID-19 koronavirusuna qarşı vaksinin alınması barədə razılaşma əldə edib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI təşkilatı arasında imzalanmış sazişə əsasən, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsdiqlənmiş və tələblərə cavab verən peyvənd istehsal olunduqda tez bir zamanda təşkilatın başqa üzv ölkələri ilə bərabər, Azərbaycan da təsdiqlənmiş peyvəndlə təmin olunacaq.

# "Abşeron" yatağı ölkəmizin ixrac potensialının artmasına mühüm töhfə verəcək

**Cavanşir Nuriyev:** *Azərbaycan artıq neftçıxarma sənayesində ən müasir texnologiyaları, avadanlıqları və qurğuları yerli istehsal hesabına təmin edir*



**Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlindəki siyasi, iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir. Ümummilli lider Heydər Əliyev çox gözəl anlayırdı ki, görülən bütün bu nəhəng işlər Azərbaycanın istiqadi müstəqilliyinin əsasını təşkil edəcək. Tarix ümummilli lider Heydər Əliyevin haqlı olduğunu sübut etdi.**

**Bu fikirləri "İki sahil"ə açıqlamasında SOCAR-ın "Azneft" İstehsalat Birliyinin H.Z.Tağıyev adına NQÇİ-nin rəisi Cavanşir Nuriyev bildirib.**

Cavanşir Nuriyev bildirib ki, Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev digər sahələrdə olduğu kimi neft strategiyasını da uğurla davam etdirir. Bu günlərdə dövlət başçısının Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlini qoyması, təxminən bir ay əvvəl isə "Qarabağ" yatağının dayaq blokunu dənizə yola salması bunun bariz nümunəsidir. Bu gün ölkə iqtisadiyyatının əsas hissəsini neft və qaz sektoru təşkil edir və bu qarşıdakı illərdə də belə olacaq. Prezident İlham Əliyevin düzgün neft və qaz strategiyası, bu sektorda reallaşdırılan yeni nəhəng layihələr gələcəyə böyük ümidlər yaradır.

Pandemiyanın geniş yayıldığı dövrdə dünya ölkələrində neft-qaz sənayesinə investisiyaların azaldığı bir zamanda Azərbaycanın enerji sektorunda belə bir layihənin icrasına başlanması uğurlu enerji siyasətinin nümunəsi hesab edilməlidir. Azərbaycanda nəhəng investisiya layihələri uğurla həyata keçirilir.

Cavanşir Nuriyev vurğulayıb ki, neft sənayesində xüsusi yerə malik olan "Abşeron" yatağı ölkəmizin karbohidrogen ehtiyatlarında önəmli paya malikdir: "Ehtiyatları 350-360 milyard kubmetr həcmində qiymətləndirilən bu yataq həm daxili tələbatın ödənilməsi, həm də ölkəmizin ixrac potensialının artmasına mühüm töhfə verəcək. Bu layihənin mühüm xüsusiyyəti ondan ibarətdir ki, Azərbaycan artıq neftçıxarma sənayesində ən müasir texnologiyaları, avadanlıqları və qurğuları yerli istehsal hesabına təmin edir. Artıq bir neçə ildir ki, neft sənayesindəki ən ağır dayaq blokalarının və platformaların tikintisi tamamilə ölkə daxilində həyata keçirilir. Bu işlər beynəlxalq standartlara uyğun şəkildə tam modernləşdirilmiş dünya səviyyəli Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda aparılır. Möhtərəm Prezident İlham Əliyev bütün çıxışlarında neft strategiyasının uğurla həyata keçirilməsində SOCAR-ın, onun tərkibində çalışan çoxminli neftçi ailəsinin əməyini xüsusi vurğulayır, ölkəmizin enerji sektorunda qazandığı nailiyyətlərdə qəhrəman neftçilərimizin xidmətlərindən geniş bəhs edir. Dövlətimizin başçısı Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindəki çıxışında qeyd etdi: " Mənim də həyatımın 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçib. O illərdə əldə etdiyim təcrübə mənim üçün çox qiymətlidir və çox gözəl xatirələrim var,çox şadam ki, mən bizim görkəmli neftçilərimizlə bir yerdə işləmişəm."

Prezidentimiz hər bir çıxışında qeyd edir ki, əsas məqsədimiz Azərbaycan vətəndaşlarının məmnunluğunun daim artırılmasıdır. Biz neftçilər də daima möhtərəm Prezidentimizin yanındayıq və uğurla davam etdirilən neft strategiyasının həyata keçirilməsində əlimizdən gələni əsirgəməyəcəyik".